**Teatrsevərlər hər zaman bu sənət ocağının səhnəsində yaddaqalan tamaşalar izləyib, maraqlı obrazlar görüblər. Burada çalışan yaradıcı heyət üçün hər mövsümün əvvəli məsuliyyət, sonu isə bir hesabatdır. Teatr Cəlil Məmmədquluzadənin pyesi əsasında mərhum Xalq artisti Azər Paşa Nemətovun quruluş verdiyi "Ölülər" tamaşası ilə 151-ci mövsümü yekunlaşdırdı. Bəs bu mövsüm, ümumilikdə, necə keçdi?**

# Milli Dram Teatrı finişə "Ölülər"lə çatdı



Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının mətbuat xidmətinin rəhbəri Cavid Zeynallı mövsümün əlamətdar hadisələrlə zəngin olduğunu bildirdi. Həmişə yeniliklərə açıq olan, tamaşaçı sevgisini əsas götürən və peşəkar yanaşmanı təlqin edən sənət ocağının ötən mövsümdə də tamaşaçılara rəngarəng repertuar təqdim etdiyini, qastrollarda uğurla çıxış etdiyini söylədi:

– Ötən mövsümdə teatrda mövzusu çağdaş günümüzlə səsləşən əsərlər səhnəyə qoyuldu, 5 yeni tamaşanın premyerası oldu. Bundan əlavə, teatr beynəlxalq festivallara, habelə forum və konfranslara dəvət aldı. IX Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda ölkəmizi təmsil etdi. Forum çərçivəsində teatr sənətinə həsr olunan xüsusi paneldə Milli Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov Rusiya, Belarus və Serbiya milli teatrlarının rəhbərləri ilə bərabər çıxışlar etdi. Həmçinin Rusiyanın Aleksandrinski Teatrı (Sankt-Peterburq) və Milli Dram Teatrı arasında əməkdaşlıq memorandumu imzalandı. Bundan başqa, Milli Dram Teatrı Qazaxıstanda keçirilən MDB, Baltikyanı ölkələr və Gürcüstan gənclərinin 5-ci Teatr Forumunda ölkəmizi təmsil etdi. Ötən günlərdə Suzdal şəhərində reallaşan 2-ci Rusiya Milli Teatrları Konqresi və Rusiya Milli Teatrlarının 1-ci Yay Festivalına da teatrımız fəxri qonaq qismində dəvət almışdı. Teatr rəhbərliyi bütün beynəlxalq tədbirlərdə iştiraka sənət ocağı üçün əlverişli platforma kimi yanaşır. Beynəlxalq tədbirlərdə iştirakımız sənət və təcrübə mübadiləsi baxımından xüsusi əhəmiyyət daşıyır.

**– Zəhmət olmasa, ötən mövsümün yeni tamaşaları barədə də məlumat verin.**

– Yola saldığımız mövsümdə teatrın yaradıcı heyəti qırğız yazıçısı Çingiz Aytmatovun "Əsrə bərabər gün", Xalq yazıçısı Anarın "Dantenin yubileyi", yazıçı-dramaturq Şıxəli Qurbanovun "Sənsiz", Məmmədhüseyn Təhmasibin "Bir qalanın sirri" və mənim "Şükriyyə" pyesimə səhnə həyatı verdi. Bu 5 səhnə əsərinin təqdimatı, rejissor yozumu, səhnə tərtibatı və aktyor oyunu maraqla qarşılandı, ən əsası, tamaşaçı məmnunluğuna nail olduq. Belə layihələrimizə yeni mövsümdə də davam edəcəyik.

Hazırda teatrda yeni tamaşanın məşqlərinə başlanıldığını deyən C.Zeynallı söylədi ki, Hüseyn Cavidin "İblis" əsəri əsasında hazırlanan "İbis və..." adlı yeni səhnə əsərinin janrı dekonstruktiv-metadramdır. Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadənin quruluş verdiyi tamaşanın premyerası yeni mövsümün əvvəllərinə nəzərdə tutulur.

***Ceyhun ALIŞLI***